# GÜNDOĞAR

Qəzet 1931-ci ildən çıxır

NEFTÇALA RAYON QƏZETİ

31 avqust 2023-cü il, № 22-23 (68058)




**HEYDƏR ƏLİYEV:**

"Dil ədəbiyyatla, mədəniyyətlə, mənəviyyatla bağlıdır, bunlarsız isə vətənpərvərlik formulu yoxdur. Mən arzu edərdim ki, Azərbaycan gənci Şekspiri ingilis dilində oxusun, Puşkini rus dilində oxusun, Nizamini, Füzulini, Nəsimini isə Azərbaycan dilində oxusun.

...Bizim bu günkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir... Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımı fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir..."

# BİZ LAÇINA QAYITMIŞIQ, HƏSRƏTİMİZ BİTİB ARTIQ!

PREZİDENT İLHAM ƏLİYEV: *"İlk növbədə, laçınlıları Şəhər Günü münasibətilə ürəkdən təbrik edirəm. İlk dəfədir ki, Laçında Şəhər Günü keçirilir, böyük təntənə ilə, böyük coşqu ilə keçirilir. Bildiyiniz kimi, azad edilmiş ərazilərdə bir müddət bundan əvvəl mənim Sərəncamımla şəhər günlərinin keçirilməsi haqqında qərar qəbul olunmuşdur, Şəhər günləri təsis edilmişdir. Şəhər günləri şəhərlərimizin azad edilməsi günləridir. Laçın şəhəri isə 26 avqust tarixində tamamilə azad edilmişdir. İkinci Qarabağ müharibəsi nəticəsində dekabrın 1-də Laçın rayonu işğaldan azad edildi, ancaq Laçın şəhəri və iki kənd – Zabux və Sus kəndləri bizim nəzarətimizdə deyildi. Ona görə ki, keçmiş Laçın dəhlizi bu şəhərdən, bu kəndlərdən keçirdi. Biz qısa müddət ərzində yeni yol çəkərək həm Laçına, həm də Zabux və Sus kəndlərinə qayıtdıq və bu gün səhər zabuxlularla mənim görüşüm olub. Onlar dünən axşam uzun fasilədən sonra – 31 ildən sonra öz doğma kəndlərinə qayıdıblar və artıq burada yaşayırlar. Laçınlılar isə mayın 28-dən etibarən artıq buradadırlar. Mayın 28-də - Müstəqillik Günündə mən birinci qrup laçınlılara onların evlərinin açarlarını təqdim etdim və beləliklə, Laçının dirçəliş dövrü başlamışdır..."*

**Vətən torpaqlarının işğaldan azad edilməsi hər birimizin qəlbində böyük iftixar, sevinc hissi yaratmışdır. Baxmayaraq ki, düşmənlər əhatəsində olan yurdumuzun istiqlalını sevməyənlər, onun zəfərini görmək istəməyən qüvvələr müxtəlif hiylələr işlətməklə bunu görməzdən gəlir, sülh danışıqlarını uzatmaqla əngəl olmağa çalışırlar. Lakin bir həqiqət aydındır ki, Azərbaycan öz haqq yolunda daim mübarizdir. Bu yoldan heç zaman dönməyəcəkdir! Bu inamın ilk sübutu azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işləridir. Torpaqlarımızın işğalından ötən bu illər ərzində məlum olduğu kimi mənfur düşmən vandal, məkrli münasibəti ilə talan etdiyi ərazilərimizin bu gün yenidən canlanması, çiçək kimi gülümsəyərək öz doğma insanlarına qapı açması nə qədər qürurverici, fərəhlidir. Bu böyük zəfəri bizə bəxş edən şəhid oğulların əziz xatirəsini ehtiramla yad edir, qazilərimizə, tənində vətən yarası daşıyan soydaşlarımıza Allahdan şəfa diləyirik. Bu yolda Ali Baş Komandan cənab İlham Əliyev başda olmaqla bütün qəlbi vətən sevgisi ilə döyünən insanlarımıza vətən uçalığı, sarsılmaz, bölünməz birlik diləyirik.**



**Bərpa-quruculuq işlərinin geniş şəkildə həyata keçirildiyi rayonlardan biri də yurdumuzun gözəl məkanlarından olan Laçın rayonudur. Ərazisi 1840 kvadrat kilometr olan, zəngin təbiəti, sərvətləri ilə vətənimizdə çox böyük əhəmiyyət daşıyan bu rayon əsrarəngiz təbiəti ilə seçilməklə bərabər, həm də milli sərvətimiz, tariximizin bir parçasıdır.**

**Məlum olduğu kimi mənfur düşmən tərəfindən Laçın rayonu 1992-ci il, may ayının 18-də işğal edilmişdir. Ötən bu illər ərzində hər il bu tarixi, eləcə də digər işğal edilmiş rayonların tarixi xalqımız tərəfindən ağrı ilə qeyd**



**edilirdi. İşğal nəticəsində böyük dağıntıya məruz qalmış Laçın rayonunda 300-dən artıq hərbi və mülki şəxs həlak olub, itkin düşmüşdür. Vandal düşmən təcavüzü nəticəsində 101 təhsil, 5 musiqi məktəbi, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 217 mədəniyyət, 30 rabitə, 133 idarə və müəssisə, 1 internat məktəbi, 1 orta texniki peşə məktəbi, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri, 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə dağıdılmışdır. Bu çirkin niyyətin daşıyıcısı olan mənfur erməni və onun havadarları bu gün yenə Azərbaycanın inkişafına xain nəzərlə baxaraq ərazilərimizin yenidən dirçəlməsini qəbul edə bilmir, həyata keçirilən quruculuq işlərini, yüksələn vətənsevərliyi xainliklə izləyir, əngəl olmağa çalışırlar. Bu gün onlarda etiraf edə biləcək ürək olmasa da, bütün dünya görür ki, yurd sevgisi, öz elini, obasını sevmək, doğmalıq necə olur...!**

*Davamı 2-ci səhifədə*

# VARLIĞIMIN SƏSİDİR ANA DİLİM!

***Ulu öndər Heydər Əliyev: "Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilə bilməz!"***

"1 Avqust – Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü" kimi hər il xalqımız tərəfindən böyük sevgi ilə qeyd edilir. Ana dilimiz hər birimiz üçün əzizdir. Bu dil bizim keçmişimiz, bu günümüz, gələcəyimizdir. Bu dil bizim həyat vəsiqəmiz, həyat bilgimizdir. Dilimiz göz nurumuzdur, idrakımızı işıqlandıran tariximizdir. O tarix ki, min illər bundan öncə bu gün vətən dediyimiz ərazimizdə yaşayan babalarımızın öyüdlərini çatdırır bizlərə. Nə qədər möhtəşəmdir, ana dilim. Bizə kimliyimizin mərhələlərini açıqlayan salnamədir. Qəhrəmanlıq dastanıdır, bizi biz edən dəyərdir.

Xalqımızın sədasıdır, addım səsidir, ana dilim. Ruhumu ucaldan, bəzən keçdiyi ağrılı mərhələlərin yarasını daşıyan "dözüm dağım"dır, ana dilim. Onu qoruyan, bizlərə çatdıran xalqsevərlərimizin ruhu şad olsun. Biz onların əmanətini sevə-sevə daşıyacağıq daim.

Ana dilimizin var olması xalqımızın varlığına, xaqımızın varlığı isə dövlətimizin yaşaması üçün vacibdir. Bu yolda keşməkeşli yolların məğrur qalasıdır ana dilim. Hər sətrində milyon ruhun səsin-sədasın daşıyır. Əsrlərin süzgəcindən zamanla keçərək nə qədər imzaları qoruyaraq xalqımızın mərdlik qalası olmuşdur. Biz onun tarixinə nəzər saldıqca vətənimizin mənəviyyat qalası olan ana dilimizlə fəxr edirik. Bütün dönəmlərdə etibarlı övladlarının fədakarlığı ilə yaşayıb, bu günümüzdə zəfər soraqlı tarixi ilə yenidən parlayır ana dilim.

Ana dilimizin qorunub saxlanılmasında, onun dövlət dili səviyyəsinə çatmasında XVI əsrdə böyük sərkərdə, dövlət xadimi, şair Şah İsmayıl Xətainin böyük xidmətləri olmuşdur. Onun ana dilimizdə yazdığı "Dəhnamə" poeması öz dövründə ana dilimizdə yazılmış möhtəşəm əsərlərdən biri olmaqla yanaşı, dilimizə verilən böyük dəyər kimi tariximizdə əhəmiyyət daşıyır. Düşmənlər əhatəsində qönçələyən, açmaq istərkən ləçəkləri qoparılan ana dilimiz nə qədər məşəqqətlərə məruz qalmışdır. Lakin zamanla yenə düşüncəsi, idrakı ilə minləri arxada qoyan əziz övladlrının sayəsində ucalmışdır.

*Davamı 4-cü səhifədə*

# 26 AVQUST – "LAÇIN ŞƏHƏRİ GÜNÜ" BÖYÜK TƏNTƏNƏ İLƏ QEYD EDİLMİŞDİR!

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev:*** "Bu gün biz həm Şuşada, həm Laçında toy-bayram edirik, həm də sakinlər qayıdıb, həyat qayıdıb. Bu gün səhər uşaqlarla bir neçə tədbirdə iştirak edirdim. Onlardan soruşurdum, həm Zabuxda, həm Laçın şəhərində, siz Bakıdan, Sumqayıtdan, digər yerlərdən gəlmisiniz, darıxmırsınız? Xeyr dedilər. Biz öz doğma torpağımızda qürurla yaşayırıq. Hər bir laçınlı, hər bir keçmiş məcburi köçkün bu gün qürur hissi ilə yaşayır. Hər bir azərbaycanlı, Azərbaycanın hər bir yerində bütün Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları qürur hissi ilə yaşayırlar ki, biz tarixi Zəfər çalaraq bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini göstərdik və öz doğma torpağımıza qan tökərək qayıtmışıq. Danışıqlar yolu ilə bunu etmək mümkün deyildi və müharibə yeganə çıxış yolu idi. Biz ədalətli



müharibə aparmışıq, biz öz torpağımızda vuruşmuşuq, savaşmışıq. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, ancaq öz torpağımızı biz heç kimə verən də deyilik. Bu məsələ ilə bağlı hələ işğal dövründə dəfələrlə mən Azərbaycan dövlətinin mövqeyini ifadə edərək deyirdim ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq, nəyin bahasına olursa-olsun öz doğma torpaqlarına qayıdacaqdır və belə də oldu ..."

# BİZ LAÇINA QAYITMIŞIQ, HƏSRƏTİMİZ BİTİB ARTIQ!

*Əvvəli 1-ci səhifədə*

**May ayından başlayaraq artıq evindən didərgin düşmüş laçınlıların bir hissəsi öz doğma ocağına qovuşmuşdur. Müharibədən sonra burada aparılan abadlıq işləri Laçına yenidən gözəllik vermişdir. 2021-ci ildən Güləbird Su Elektrik Stansiyasının tikintisinə başlanmışdır ki, bu gün artıq bu stansiya tam gücü ilə fəaliyyət göstərir.** Bu stansiya təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Burada istehsal olunan elektrik enerjisi Laçın rayonunun cənub hissəsini əhatə etməklə, eyni zamanda Qubadlı rayonunun Xanlıq kəndini də, həmçinin ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcəkdir. Laçın rayonunda Həkəri çayının ən böyük qolu olan Hoçaz çayı üzərində yerləşən və ermənilər tərəfindən tamamilə dağıdılmış 14,25 meqavat gücündə "Ağbulaq", 8,25 meqavat gücündə "Mişni" və 6 meqavat gücündə "Alxaslı" Su Elektrik stansiyaları ölkə rəhbəri cənab İlham Əliyevin tapşırığına uyğun olaraq tamamilə yenidən qurulub. Hazırda "Ağbulaq" Su Elektrik Stansiyasında artıq son tamamlama işləri aparılır. "Mişni" və "Alxaslı" Kiçik Su Elektrik stansiyaları 2023-cü il avqustun 25-də işə salınıb. Bu günədək Laçın rayonunda ümumi gücü 40,5 MVt, illik enerji istehsalı potensialı 120 milyon kilovat-saat olan 5 kiçik su elektrik stansiyası yenidən qurularaq istismara verilib. Görülən bütün bu işlər xalqımızın öz ocağına daha tez dönə bilməsi üçün demək olar ki, böyük ruh yüksəkliyi ilə həyata keçirilmişdir.

**Laçın rayonunda ən böyük tikinti işlərindən biri də təməli 2021-ci ildə** qoyulmuş Laçın Beynəlxalq Hava Limanının tikintisidir ki, bu vacib obyektin 2025-ci ildə istifadəyə verilməsi planlaşdırılır. Hava limanı dəniz səviyyəsindən 1800 metr hündürlükdə inşa edilir və postsovet məkanında ən yüksək dağlıq ərazidə yerləşən hava limanlarından biri olacaq. Bu hava limanı strateji təyinatı ilə yanaşı, gələcəkdə regionun turizm potensialının inkişafına da böyük imkan verəcəkdir. Bütün bu görülən işlərlə yanaşı, tezliklə Laçın şəhərində xəstəxana, İşğal və Zəfər muzeylərinin yerləşəcəyi Memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektləri də inşa ediləcəkdir.

Laçın şəhərində yaradılan Aqro və Sənaye Parkında isə ümumilikdə 46 müəssisənin fəaliyyət göstərməsi planlaşdırılıb.

**Dövlət rəhbərinin tapşırığına əsasən 28 may 2023- il tarixindən Laçın şəhərinə köçən keçmiş məcburi köçkünlər, laçınlılar yeni tikilmiş evlərdə məskunlaşıblar. İlkin mərhələdə köçürülən ailələr Bakı, Sumqayıt şəhərlərində, Abşeron rayonunda yaşayan ailələr arasından seçilib. Şəraiti daha ağır olan ailələrin köçürülməsi ilk mərhələdə planlaşdırılıb.**

2023-cü ilin 28 may tarixindən başlayaraq bu doğma elimizə qayıdış başlanılmışdır. Laçına qayıdış laçınlıların doğma yurd həsrətinə son qoyub, ötən illərin ağrılı xatirələrinə yenidən doğmalarını qoynuna alan torpaq məlhəm olmuşdur. **Laçın rayonuna birinci mərhələdə 20 ailə, ümumilikdə 97 nəfər, ikinci mərhələdə 10 iyul tarixində 111 ailə, ümumilikdə 424 nəfər köçürülmüş, əhalinin daimi məskunlaşması üçün hər bir şərait yaradılmışdır. Cəmi 9 ay müddətində aparılan quruculuq işləri nəticəsində köçürülən əhalinin şəraitinin yaxşılaşması üçün vacib olan tikinti işləri bitmiş, şəhər mərkəzi laçınlıların gəlişinə hazırlanmışdır. "Böyük Qayıdış" uğurla davam edir, ilin sonuna qədər Laçın şəhərinin mərkəzinə daha 1000 ailənin geri dönməsi planlaşdırılır.**

Laçın rayonunda yol-nəqliyyat infrastrukturu da yenidən bərpa edilir. Ölkə rəhbəri cənab İlham Əliyevin sərəncamına əsasən, uzunluğu 75,8 kilometr olan Kəlbəcər-Laçın avtomobil yolu tikilir. Bu yolun üzərində 17 tunelin inşası nəzərdə tutulur. Tunellərin ümumi uzunluğu 13,3 kilometrdir. Bundan başqa, yol üzərində ümumi uzunluğu 4163 metr olan 23 körpünün də inşa edilməsi nəzərdə tutulur. Bütün bu görülmüş işləri, eyni zamanda gələcəkdə görüləcək bərpa-quruculuq işlərini qeyd etmək bir azərbaycanlı olaraq hər birimiz üçün ruh yüksəkliyi, fəxarətdir. Cənab Prezident İlham Əliyev başda olmaqla Allah xalqımızı qorusun, sərhədlərimizdə ayıq-sayıq dayanan ordumuzu var eləsin. Elə bu görülmüş işlərin ən məsuliyyətli hisssələrindən biri də əhalinin təhlükəsizliyinin bərpasıdır. Bu istiqamətdə də ərazilərimizdə geniş işlər həyata keçirilmişdir. Əhalinin, ərazilərimizin təhlükəsizliyi üçün vacib olan işlər reallaşdırılmışdır. Laçın şəhərində yeni "Heydər Əliyev", "28 May", "Xosrov bəy Sultanov", "Zəngəzur", "1 Dekabr" adı verilmiş küçələr salınmışdır.Bu yeniliklər bu günümüzdən sabahımıza yazılan ən yeni tariximizdir.

Bəli, QARABAĞ AZƏRBAYCANDIR! Zamanla abadlaşır, yenidən dirçəlir. Bu inkişaf dövlətimizin və birliyimizin gücü olaraq bütün dünyaya Azərbaycanın gələcək xoş sabahından xəbər verir. Öz doğma ocağına qovuşan laçınlılar bütün göstərilən qayğı və diqqətə görə ölkə rəhbəri, Ali Baş Komandan cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, qəhrəman döyüşçülərimizə minnətdarlıq bildirmişlər.

***B. NİFTALIYEVA***

## Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olundu və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.

Rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin canı, qanı bahasına Vətən müharibəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndi daxil olmaqla, ümumilikdə 300-dən çox yaşayış məntəqəsi, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edildi. Qarabağın tacı Şuşa şəhərinin azad edilməsi və Ermənistanın kapitulyasiya aktını imzalamağa məcbur olması ilə müharibə başa çatdı.

Azərbaycanın döyüş meydanında qazandığı böyük qələbə siyasi müstəvidə də öz təsdiqini tapdı – Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını işğaldan azad etmək məcburiyyətində qaldı və bununla da tarixi ədalət bərpa olundu.

30 illik işğal dövründə Ermənistan tərəfindən şəhərlərimiz, kəndlərimiz, qəsəbələrimiz viran edilmiş, mədəni irsimizə böyük zərbə vurulmuş, tarixi-mədəni və dini abidələrimiz, məscidlərimiz dağıdılaraq vandalizmə məruz qalmışdır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır.

Məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına başlanılmışdır. Artıq Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə və Laçın şəhərinə məcburi köçkünlərin qayıdışı təmin olunmuşdur və bu istiqamətdə işlər davam etdirilir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Vətən müharibəsində əldə olunmuş tarixi qələbəni əbədiləşdirmək və işğaldan azad edilmiş şəhərlərin günlərini təsis etmək məqsədilə qərara alıram:

1. Hər il aşağıdakı günlər işğaldan azad edilmiş ərazilərdəki şəhərlərin günləri kimi təntənəli şəkildə qeyd olunsun:

**26 avqust – Laçın şəhəri günü**
**4 oktyabr – Cəbrayıl şəhəri günü**
**17 oktyabr – Füzuli şəhəri günü**
**20 oktyabr – Zəngilan şəhəri günü**
**25 oktyabr – Qubadlı şəhəri günü**
**8 noyabr – Şuşa şəhəri günü**
**20 noyabr – Ağdam şəhəri günü**
**25 noyabr – Kəlbəcər şəhəri günü.**

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri ilə birlikdə bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 31 iyul 2023-cü il***

# “Heydər Əliyev və Azərbaycan dili”



Neftçala rayonunda 1 avqust tarixində “Azərbaycan əlifbası və Azərbaycan dili” günü ilə əlaqədar olaraq “Heydər Əliyev və Azərbaycan dili” mövzusunda dəyirmi masa ətrafında görüş keçirilib.

Görüşdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq- mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, şairlər və ictimaiyyət nümayəndələri iştirak edib. Görüş iştirakçıları tərəfindən Neftçala şəhərində Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinə ucaldılan əzəmətli heykəli ziyarət olunub, önünə gül dəstələri düzülüb, Ümummilli Liderin əziz xatirəsi ehtiramla yad edilib və Ulu Öndər Heydər Əliyevin həyat, fəaliyyətini əks etdirən guşəyə baxış keçirilib. Tədbirdə Ümummilli Lider Heydər Əliyevin, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların ruhu bir dəqiqəlik sükutla yad olunub və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin məktəbəqədər təhsil və ibtidai təhsil elmi-metodiki jurnalının baş redaktor əvəzi Böyükağa Mikayıllı, Azərbaycan Yazıçılar Birliyinin Muğan bölməsinin sədri Nəbi İbrahimli, Azərbaycan Yazıçılar İttifaqının üzvü, Beynəlxalq Rəsul Rza mükafatı laureatı, Prezident təqaüdçüsü, şair-publisist Elnur Uğur, “Gündoğar” rayon qəzetinin baş redaktoru Bədirə Niftaliyeva və Rayon Ağsaqqallar Şurasının üzvü, təqaüddə olan təhsil işçisi Nəcəfqulu Hacıyev çıxış edərək Azərbaycan dili haqqında fikirlərini bildirmiş, dilimizin tarixindən maraqlı mənbələri qeyd etmişlər. Bildirilib ki, ana dilimizin inkişafında Ümummilli lider Heydər Əliyevin xidmətləri mühüm amil olaraq tariximizdə yaşayacaq. Dahi liderin hələ 1969-cu ildə ilk dəfə siyasi hakimiyyətə gəldikdən sonra milli dilimizin qorunması, inkişafı yolunda göstərdiyi uzaqgörənlik heç zaman yaddan çıxmayacaqdır.

Görüşdə çıxış edən Neftçala RİH-in başçısı Mirhəsən Seyidov bildirib ki, Azərbaycan Respublikasının Prezidentinin imzaladığı “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” 18 iyun 2001-ci il tarixli 506 saylı Fərmanı, “Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının tərkibinin təsdiq edilməsi” haqqında 4 iyul 2001-ci il tarixli 76 nömrəli Sərəncamı, “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi” haqqında 9 avqust 2001-ci il tarixli 552 nömrəli Sərəncam və 30 sentyabr 2002-ci il tarixində “Azərbaycan Respublikasının dövlət dili” haqqında qanun ölkəmizdə dil siyasəti, dil quruculuğunun mükəmməl konsepsiyasını, onun uzunmüddətli strategiyasını müəyyən edən tarixi qanunvericilik aktlarıdır. Bu sənədlərin hazırlanmasında dahi və fenomen şəxsiyyət Heydər Əliyevin yüksək intelekti, zəngin dövlətçilik təcrübəsi, yenilməz məntiqi və ana dilimizə olan misilsiz məhəbbəti mühüm rol oynayır. RİH-in başçısı cənab Mirhəsən Seyidov həmçinin qeyd etmişdir ki, Azərbaycan dilinin inkişafı, onun tətbiqi sahəsinin genişləndirilməsi, dilimizin yad təsirlərdən qorunması, dilimizin saflığı və təmizliyi istiqamətində Ulu Öndər Heydər Əliyevin dəyərli xidmətləri bu gün Ulu Öndər siyasiətinin davamçısı Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

# ZAMANIN TƏLƏBİ - TƏHSİL!

***ULU ÖNDƏR HEYDƏR ƏLİYEV DEMİŞDİR:***

***“Təhsil hər bir dövlətin,** ölkənin, **cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz. Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı, Azərbaycan elmi inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərlə əldə etdiyimiz nailiyyəti heç vaxt unutmamalıyıq.***

***Təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Hər bir insan gərək, eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun. Dövlətinə sadiq, millətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun”.***





Bu gün Azərbaycan dövlətinin həyata keçirdiyi düşünülmüş xarici siyasət bir çox sahələrdə diqqəti cəlb etməkdədir ki, bunlardan biri də təhsil sahəsidir. Xarici əlaqələrin bir çox layihələr üzrə ardıcıl, davamlı müsbət nəticələri ölkəmizin bu sahədə uğurlarının nəticəidir. Respublikamızın digər rayonlarında olduğu kimi doğma Neftçalamızda da bu reallıqlar öz əksini tapmaqdadır.

Neftçala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı, Yaponiya səfirliyinin maliyyə dəstəyi ilə Neftçala rayonunun Qırmızıkənd kəndində Qırmızıkənd kənd tam orta məktəbi üçün əlavə sinif korpusunun açılış mərasimi keçirilib. Açılış mərasimində Yaponiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Vada Cuniçi, Rayon İcra Hakimiyyətinin başçısı cənab Mirhəsən Seyidov, Şirvan Salyan Regional təhsil idarəsinin müdiri Sənan Mənsimli və layihə rəhbəri Azərbaycan gənc aspirant, magistr və doktorantlar cəmiyyətin sədri İlqar Orucov iştirak ediblər. Tədbirdə öncə Azərbaycan və Yaponiyanın dövlət himnləri səsləndirilib, Ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Mərasimdə Yaponiyanın ölkəmizdəki səfiri cənab Vada Cuniçi, Neftçala Rayon İcra Hakimiyyətinin başçısı cənab Mirhəsən Seyidov, Şirvan Salyan Regional Təhsil İdarəsinin müdiri Sənan Mənsimli çıxış edərək, regionda icra olunan layihələrin Azərbaycan və Yaponiya arasında qurulmuş səmimi və dostluq əlaqələrinin təcəssümü kimi qiymətləndirib, gələcəkdə qarşılıqlı faydalı əməkdaşlığa yeni töhfələr verəcəyinə ümidlər ifadə olunub. Rayon İcra Hakimiyyətinin başçısı cənab Mirhəsən Seyidov çıxışında bütün məktəbliləri, təhsil işçilərini təbrik edib. Son illər Azərbaycan təhsilinin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu, ölkə başçısı cənab İlham Əliyevin qayğısı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələrin Ulu Öndər Heydər Əliyevin təhsil siyasətinin davamı olduğunu qeyd etmiş, Fondun “Yeniləşən Azərbaycana yeni məktəb” proqramı çərçivəsində rayonumuzda da bir sıra layihələrin uğurla icra olunduğunu xüsusi qeyd edib.

Tədbir kənd əhalisinin, xüsusilə məktəblilərin böyük sevincinə səbəb olub. Qeyd edilib ki, Yaponiya hökumətinin dəstəyi ilə inşa olunmuş Qırmızıkənd kənd tam orta məktəbi üçün əlavə tədris korpusunun tikintisi ilə yanaşı, Rayon İcra Hakimiyyətinin yaxından köməkliyi ilə məktəbin həyətyanı ərazisində yenidənqurma və abadlıq işləri də həyata keçirilib və burada lazımi şərait yaradılıb.

## Təhsil avtobusu– gələcəyə doğru...

*Avqust ayının 18-də Neftçala Rayon İcra Hakimiyyətinin və Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyinin dəstəyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və “Vətəndaş Cəmiyyətində Debat” İctimai Birliyinin təşkilatçılığı ilə*

“AZƏRBAYCAN ÜÇÜN ÖYRƏT!” proqramı çərçivəsində həyata keçirilən “Təhsil avtobusu–gələcəyə doğru” layihəsi çərçivəsində növbəti görüş Neftçala rayonunda təşkil edilmişdir. Görüşdə Yay məktəbinin 34 şagirdi iştirak edib, kodlaşdırma və robototexnika, yaradıcı düşünmə bacarıqları, ilkin sahibkarlıq anlayışları, ünsiyyət və təqdimat bacarıqları, STEAM metodologiyası üzrə təlimlər, intellektual yarışlar və oyunlar baş tutub. Layihənin məqsədi şagirdlərdə gələcək üçün yeni bacarıq və vərdişlər qazandırmaq, həyata fərqli baxış və dünyagörüşünün formalaşmasına təsir etmək, təhsilə marağın artmasına şərait yaratmaq və “Heydər Əliyev irsi”ni təbliğ etməkdir. Layihə Elm və Təhsil Nazirliyi və “Vətəndaş Cəmiyyətində Debat” İctimai Birliyinin təşkilatçılığı, Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyinin dəstəyi,



“Asmart Creative Hub” yaradıcılıq mərkəzi, “Start IT” şirkəti, “Women in Tech Azerbaijan” “Kids Inc.” proqramı, Milli Debat Proqramı, “Azerbaijan Public Speaking Competition” proqramının tərəfdaşlığı ilə həyata keçirilir. Qeyd edək ki, 6-cı dəfədir həyata keçirilən həmin layihənin məqsədi hər il fərqli konsepsiya üzrə “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın dəstəklənməsidir. 2016-cı ildən etibarən hər il müxtəlif konsepsiya ilə yola çıxan “Təhsil avtobusu” layihəsinə respublikanın 29 rayonu və böyük şəhərlərini əhatə etməklə 22 ali və orta təhsil müəssisəsi, 62 şəhər məktəbi, 98 kənd-qəsəbə məktəbini təmsil edən 900-dən çox şagird və tələbə cəlb edilib. Təlimçi və ekspertlər tərəfindən 350 akademik saatdan çox həcmdə təhsil proqramları və komanda-öyrədici oyunları təşkil olunub.

***“Gündoğar”***

# ƏHƏMİYYƏTLİ GÖRÜŞLƏR

Avqust ayında hər ay olduğu kimi yenə də Neftçala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə hər həftə rayon ərazisində səyyar görüşlər təşkil edilmişdir. Avqust ayında Neftçala rayonunun Mayak kəndində, Mürsəqulu, Xol Qaraqaşlı, Beştalı kəndlərində səyyar görüşlərin təşkili həyata keçirilmişdir. Hər bir görüş zamanı seçilmiş mövzular üzrə maarifləndirici çıxışların təşkili, görülmüş işlər haqqında arayışların verilməsi, eyni zamanda əhalini narahat



edən məqamlar haqqında söhbətlər aparılmış, təkliflər dinlənilmişdir.

Səyyar görüşlərdə Ulu Öndər Heydər Əliyevin, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların ruhu ehtiramla yad edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev başda olmaqla işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən bərpa-quruculuq işləri haqqında əhali məlumatlandırılmışdır. Bununla bərabər səyyar görüşlərdə çıxış edənlər Mayak kəndində "Müasir Azərbaycan gəncliyinin beynəlxalq arenaya inteqrasiyası və qazandığı uğurlar Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır" mövzusunda, Mürsəqulu kəndində, Xol Qaraqaşlı kəndində "İşğaldan azad edilmiş ərazilərimizin bərpası və inkişafı, ölkə rəhbərliyi tərəfindən aparılan siyasi kursun prioritet istiqamətidir" mövzusunda, Beştalı kəndində "Ümummilli Lider Heydər Əliyev regionda sülhün və sabitliyin qorunmasına misilsiz töhfələr verən əvəzsiz lider idi" mövzusunda iştirakçılara məlumat vermişlər.

Görüşdə çıxış edən Neftçala RİH-in başçısı Mirhəsən Seyidov 44 gün davam edən Vətən müharibəsindən, müharibədə iştirak edən vətən oğullarının igidliyindən, döyüş yolundan, sentyabr ayının 12-dən 13-nə keçən gecə və 11 aprel 2023-cü ilin tarixində düşmənin təxribatı zamanı hərbiçilərimizin qəhrəmancasına döyüşməsindən, döyüşlər zamanı ordumuz üçün əhəmiyyətli yüksəkliklərin əldə olunmasından, düşmənin təxribatının qarşısını alarkən qəhrəmancasına şəhidlik zirvəsinə ucalan şəhidlərimizdən və yaralanan hərbiçilərimiz haqqında məlumat verib. Şəhidlərimizin ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verib, yaralı hərbiçilərimizin tezliklə sağlamlıqlarına qovuşmalarını arzu edib. RİH-in başçısı Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycana siyasi hakimiyyətə gəldikdən sonra regionda sülhün bərpa olunması üçün əvəzsiz xidmətləri, ölkəmizdə sabitlik və əmin-amanlığın bərpa olunması, ölkəmizdə hər tərəfli inkişaf prosesinin sürətlə inkişaf etməsini görüş iştirakçılarının diqqətinə çatdırıb. RİH-in başçısı bildirdi ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsinin, əsgər və zabitlərimizin, xalqımızın birliyi nəticəsində torpaqlarımız 44 günlük Vətən müharibəsi ilə işğaldan azad olunub. İşğaldan azad olunan ərazilərimizdə və Neftçala rayonunda görülən yenidənqurma işləri haqqında görüş iştirakçılarına məlumat verib.

Səyyar qəbulda sakinlər rayonda aparılan abadlıq-quruculuq işlərilə əlaqədar təşəkkürlərini bildiriblər, kənd yollarının təmir olunması, suvarma suyunda yaranan çətinliklər, su borusunun yenilənməsinə köməklik olunması və digər məsələlər ilə əlaqədar təkliflər səsləndiriblər. Vətəndaşların səsləndirdikləri ümumi problemlər ayrı-ayrılıqda dinlənilib və məsələlər müzakirə olunub, digər problemlərin həllinin araşdırılması üçün qəbuldan sonra müvafiq şöbələrə və şəxslərə tapşırıqlar verilib.

Vətəndaşlar göstərilən yüksək diqqət və qayğıya, rayon ərazisində aparılan abadlıq- quruculuq işlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

Məlumat üçün bildiririk ki, vətəndaş məmnunluğunu artırmaq və xidmət keyfiyyətinin yaxşılaşdırılmasının tə-



min olunması məqsədilə vətəndaşlar Neftçala Rayon İcra Hakimiyyəti ilə həm virtual, həm də yerində görüşlər üçün yeni yaradılan "Rəqəmsal İcra Hakimiyyəti" https://rih.gov.az portalına daxil olmaqla müraciət imkanı əldə edə bilərlər.

## 18 Avqust - Sərhəd Qoşunları Günüdür!

***Ali Baş Komandan İlham Əliyev:*** *"Lazım gələn anda bütün hərbi qurumlar bir yumruq kimi hərəkət edərək Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcək!"*

Vətən sərhəddən başlayır. Sərhədlərimizin qorunması hər bir Azərbaycan vətəndaşının borcudur. Əsasən, bu məsul vəzifə Azərbaycan Sərhəd Qoşunlarının üzərinə düşür.

Bu şərəfli vəzifənin icrası ilk dəfə 1919-cu il avqustun 18-də Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının gömrük baxımından sərhəd mühafizəsinin təsis edilməsi haqqında" qanun qəbul edilməsi ilə başlayıb. Qanun qəbul edilməsi bu sahədə xüsusu olaraq seçilmiş əməkdaşların olması ilə sərhəd xidmətinin qorunmasının vacibliyini diqqətə çatdırır. Tariximizin elə bu önəmli səhifələrini heç zaman unutmayan, əksinə hər zaman varislik olaraq qeyd edən Ulu Öndər Heydər Əliyev 16 avqust 2000-ci ildə AXC-nin ilk sərhəd mühafizəsinin təsis edildiyi tarixin Azərbaycan Respublikasının Sərhəd Qoşunları əməkdaşlarının peşə bayramı günü kimi elan edilməsi haqqında Sərəncam imzaladı.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra, 9 dekabr 1991-ci ildə Respublikanın Milli Şurası "Azərbaycan Respublikasının Dövlət Sərhədi haqqında" Qanun qəbul etdi. Həmin ilin dekabr ayının 16-da isə Azərbaycan Respublikasının Dövlət Sərhədini Mühafizə Komitəsi (DSMK) yaradıldı. 2001-ci ildə Sərhəd Qoşunlarının xidməti hesabatını qəbul edərkən Ulu Öndər sərhədçilər qarşısına beynəlxalq terrorçuluğa, qanunsuz miqrasiyaya, narkotiklərin qanunsuz dövriyyəsinə, qaçaqmalçılığa qarşı mübarizə aparılması, dənizdə neft-qaz hasilatı infrastrukturunun mühafizəsi kimi mühüm vəzifələr qoymuşdur. 2002-ci il iyulun 31-də Ulu Öndər Heydər Əliyev sərhəd qoşunlarının Milli Təhlükəsizlik Nazirliyinin tərkibindən çıxarılması və onun bazasında Dövlət Sərhəd Xidmətinin yaradılması barədə Fərman imzalayıb ki, bununla da Azərbaycan sərhədçilərinin fəaliyyətlərinin yeni mərhələsi başlayıb.

Əziz vətənimizin sərhədlərinin keşiyində daim ayıq-sayıq dayanan, əldə silah, canının odu, gözünün nuru ilə vətən torpaqlarını qoruyan sərhədçilərimizi peşə bayramları - "18 Avqust Sərhəd Qoşunları Günü" münasibətilə ürəkdən təbrik edir, şərəfli və məsuliyyətli işlərində ucalıq, can sağlığı diləyirik.

# VARLIĞIMIN SƏSİDİR ANA DİLİM!

*Əvvəli 1-cü səhifədə*

Bu gün ən böyük dünya salonlarında, möhtəşəm kürsülərdə ana dilimizdə nitq söyləyən soydaşlarımızın bu məğrur yolu böyük şəxsiyyət, uzaqgörən lider Heydər Əliyevin çözdüyü yol ilə daha da inkişaf etmiş, işıqlandırılmışdır. Ulu Öndər Heydər Əliyev ana dilimizin qorunması üçün XX əsrin 70-ci illərindən çox böyük xidmətlər göstərmişdir. Azərbaycan SSR-nin 1978-ci il Konstitusiyasında ana dilimizə yüksək dəyər verərək onu Azərbaycan SSR –nın dövlət dili elan edilməsinə nail olmuşdur. Hələ vətənimizin yenidən müstəqil olmasından çox illər əvvəl atılmış bu addım düşünülmüş bir siyasət idi. Dilimizin mövqeyinin dəyərləndirilməsi idi. Azərbaycan 1991- ci ildə yenidən müstəqillik qazandıqdan sonra onun qəbul etdiyi bütün əhəmiyyətli sənədlərdən biri də dilimizin varlığı, statusu haqqında olmuş, bu da yenidən 1995-ci il Konstitusiyasında öz əksini tapmışdır.

Dilimizin mövqeyinin qorunması ilə yanaşı onun inkişafını tənzimləyən qanunlar verilməsi bu sahədə mühüm dəyişikliklər yaratmış, ana dilimizin zənginliyinin, onun yad təsirlərdən qorunmasına, inkişafına təkan vermişdir.

2001-ci ildə Ümummilli lider Heydər Əliyev tərəfindən imzalanan "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman isə xüsusi tarixi əhəmiyyət daşıyan böyük siyasi hadisə idi. Məhz Ulu öndər Heydər Əliyevin yürütdüyü dil siyasətinin nəticəsində bütün dövlət və qeyri-hökumət təşkilatlarında, indiyə qədər Azərbaycan dilindən istifadə etməmiş qurumlarda dövlət dili, sözün həqiqi mənasında, bərqərar edildi. Eləcə də, latın qrafikasına keçid prosesi başa çatdırıldı.

30 sentyabr 2002-ci ildə isə Ulu öndər Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun təsdiq olundu. Bu sənəddə göstərilir ki, Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır.

Ümummilli lider Heydər Əliyevin 2001-ci il avqustun 9-da imzaladığı Sərəncama əsasən isə avqustun 1-i respublikamızda "Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü" kimi qeyd edilir. Bu, Azərbaycan dili tarixində əlamətdar, önəmli hadisədir.

Biz ana dilimizi sevir, onunla fəxr edirik. Dilimizin varlığının, zənginliyinin qorunması yolunda bu gün başda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev olmaqla bütün soydaşlarımız birlik nümayiş etdirirlər. Biz inanırıq ki, ana dilimizi sabahımıza daha gözəl imkanlarla çatdıracaq, gələcək nəsillərə ərməğan edə biləcəyik.

**B. NİFTALIYEVA**

# U N U T M A D I Q!

***ONLAR AVQUST AYINDA DÜNYAYA GÖZ AÇMIŞ, VƏTƏNİMİZİN İŞIQLI SABAHI YOLUNDA ƏBƏDİYYƏT GÜNƏŞİNƏ ÇEVRİLMİŞLƏR. RUHUNUZ ŞAD, MƏKANINIZ BEHİŞT OLSUN, Ş Ə H İ D L Ə R!***



Şəhid **İsmayılov Sərdar Cəfər oğlu** 27 avqust 1971-ci ildə Neftçala rayonunun Astanlı kəndində anadan olmuşdur. Qarabağ uğrunda döyüşlərdə 31 oktyabr 1992-ci ildə itkin düşmüşdür. RUHU ŞAD OLSUN.



Şəhid **Əsgərov Seymur Rasim oğlu** 31 avqust 1974-cü ildə Neftçala rayonu Həsənabad qəsəbəsində anadan olmuşdur. 1993-cü ildə Qarabağ uğrunda döyüşlərdə itkin düşmüşdür. RUHU ŞAD OLSUN.



Şəhid **Yusifov Telman Avasat oğlu** 16 avqust 1975-ci ildə Bankə qəsəbəsində anadan olmuş, 1994 -cü ildə 18 fevral tarixində Qarabağ uğrunda döyüşlərdə, Murovdağ istiqamətində itkin düşmüşdür.



Şəhid **Cəfərov Cəlil Sulduz oğlu** 8 avqust 1998- ci ildə Neftçala rayonu Şorkənd kəndində anadan olmuşdur. Oktyabrın 16-da şəhid olan Cəlil 2020-ci il noyabr ayının 19-da Şorkənd kəndində dəfn olunub.Ruhu şad olsun.



Şəhid **Sadıqov Zaur Əlizadə oğlu** 15 avqust 1970-ci ildə Neftçala şəhərində anadan olmuşdur. 31 avqust 1992-ci ildə Qarabağ uğrunda döyüşlərdə şəhid olmuşdur. RUHU ŞAD OLSUN.



Şəhid **Rəhmanov Eldar Abasağa oğlu** 23 avqust 1971-ci ildə Neftçala rayonu Aşağı Surra kəndində anadan olmuşdur. 1994-cü ildə Qarabağ uğrunda döyüşlərdə şəhid olmuşdur. RUHU ŞAD OLSUN.



Şəhid **Hüseynov Xəqani Fazil oğlu** 15 avqust 1973-cü ildə Neftçala rayonu Kürqarabucaq kəndində anadan olmuşdur. Qarabağ uğrunda döyüşlərdə 1993-cü ildə fevral ayında qızğın döyüşlər zamanı itkin düşmüşdür. Ruhu şad olsun.




Şəhid **Quliyev Əkbər Güləhməd oğlu** 18 avqust 2000-ci ildə Neftçala rayonu Xıllı qəsəbəsində anadan olmuşdur. Döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Onun nəşi 16 fevral 2021-ci ildə ailəsinə təhvil verilmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir. Ruhu şad olsun.



Şəhid **Mirzəməmmədov Kamran Sahib oğlu** 28 avqust 1961-ci ildə Neftçala rayonu 1 saylı Mayak kəndində anadan olmuşdur. 1994-cü ildə may ayının 5-də Qarabağ uğrunda döyüşlərdə şəhid olmuşdur. RUHU ŞAD OLSUN.



Şəhid **Abdullayev Vaqif İsrafil oğlu** 22 avqust 1976-cı ildə Neftçala şəhərində anadan olmuşdur. Xidməti vəzifəsini yerinə yetirərkən 1997-ci ildə Qarabağda şəhid olmuşdur. RUHU ŞAD OLSUN.



Şəhid leytenant **Orucov Xalid Saleh oğlu** 7 avqust 1996-cı ildə Neftçala rayonu Aşağı Surra kəndində anadan olmuşdur. Oktyabr ayının 12-də Füzuli rayonu uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Ruhu şad olsun.



Şəhid **Dadaşov Elvin İmanqulu oğlu** 14 avqust 1993-cü ildə Neftçala rayonu Z. O. Qoltuq məhəlləsində anadan olmuşdur. Xocavənd rayonu istiqamətində şəhid olmuşdur. 19 noyabr 2020-ci ildə Neftçala rayon Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ruhu şad olsun.



ATAMALI TALIBOĞLU

## Xatirla məni

Yollara çıxanda tanış üz görsən,
Köksü gül bitirən çəmən, düz görsən,
Harada xoş sifət, gülərüz görsən,
Xatırla məni.

Buludlar köç edib, edəndə səfər,
Saçını oxşasa həzin küləklər.
Boynunu yollarda bursa çiçəklər
Xatırla məni.

Gecikse, vaxtında gəlməsə bahar,
Əriyib getməsə zirvələrdə qar,
Qərib tək göylərdə uçsa durnalar
Xatırla məni.

Ulduzlar göz vurub yerə baxanda,
Bulaqlar gurlaşıb şır-şır axanda,
Şehdən gül-çiçəklər sırqa taxanda
Xatırla məni.

## Qocalar

Gəlib yığışarlar sakit guşəyə,
Başlanar danışıq, söhbət o ki, var.
Dünyada nur, işıq çoxalsın deyə
Gözünün nurunu verərlər onlar.

Yaş üstə yaş gələr, il ötər, nə qəm,
Ömür, gün qatarı geriyə dönməz.
Harda qoca yoxsa orda deyirəm
Müdriklik, böyüklük heç vaxt görünməz.

Ömürdən quş kimi ötüşən vaxta,
Dərindən ah çəkib heyfslənərlər.
Həyatdan köçəndə, - son ayaqda da,
Təsbeh çevirərlər, təsbeh çəkərlər.

Düşər yaddaşları hərdənbir düyün,
Sirri ürəklərdə gizlənər, qalar.
Elin qəm yükünü azaltmaq üçün
Çıxır dərdlərinə şərik qocalar.

## Sözün də çəkisi var

Hər sözün çəkisi, ağırlığı var,
Hər söz qiymət alır öz çəkisiylə.
Söz var ki, çəkisi ağırdan-ağır,
Söz də var heç onu gətirmə dilə.

Toylar, mərasimlər söz ilə dolu,
Adamlara qiymət verilir sözlə.
Söz tüfəng kimidir, mərmi kimidir
Açılar, partlayar, özünü gözlə.

Səndən dost ürəyi şüşə tək sınsa
Ömründə o ürək sağala bilməz.
Ağılla bir sözü ölçüb deyəndə
Bil, onun dəyəri ölçüyə gəlməz.

Bəzən elə olub bir ağır sözə
Dözə bilməyibdir, partlayıb ürək.
Bir kəlmə deyilən ağsaqqal sözü
Çətin gündə olub ellərə kömək.

Unutma heç zaman bir həqiqəti,
Daim güc almışıq aqil sözündən.
Hər sözü gətirmə dilə, ağıza,
Yoxsa tez düşərsən elin gözündən.



## ŞAH İSMAYIL XƏTAİ

Azərbaycana tacdır,
Şah İsmayıl Xətai.
Mənəvi ehtiyacdır,
Şah İsmayıl Xətai.

Millətin qürurudur,
Ulu yurdu qorudu.
Ürəklərin nurudur,
Şah İsmayıl Xətai.

Əlində qılınc, qələm,
Başının üstdə ələm,
Yenilməz şahım, lələm,
Şah İsmayıl Xətai.

İlk milli qəhrəmandır,
Şair, ədib, ürfandır,
Vahid Azərbaycandır,
Şah İsmayıl Xətai.

## GÖRÜNMÜR

Hər şey boyatlaşıb, soyuyub, solub,
Doğma istilik də közdə görünmür.
Elə qarışıb ki, yollar, cığırlar,
Geri qayıtmağa iz də görünmür.

Dünya çox arzular, ümidlər qırdı,
Köksü qabaranın köksündən vurdu,
Qabaq düz deyənlər düzdə qalırdı,
İndi bu düzlərdə düz də görünmür.

Çıxıbdır varımız-yoxumuz əldən,
Alınıb çin olan yuxumuz əldən,
Silahı qoymuşuq çoxumuz əldən,
O təpər, o qürur bizdə görünmür.

Çınqılar ətrafda oynaşan zaman,
Nə bilir köz verir kül altına can...
Söz verib əməldə axsayan insan,
Mötəbər əməldə, sözdə görünmür.

Fələyin çərxinə dolandı ömür,
Fırlana-fırlana talandı ömür,
Ümid tonqalında qalandı ömür,-
Astar göstərənlər üzdə görünmür.

MÜZƏFFƏR MƏZAHİM.



## UĞUR OLSUN

Göstər gücünü düşmənə, Ordum, uğur olsun!
Sayəndə azad olmada yurdum, uğur olsun!

Ver xalqa zəfər müjdəni, şəninlə öyünsün,
Qəlbimdə qürur heykəli qurdum, uğur olsun!

Öz qüvvəmizə arxalanıb düşməni yendik,
Fəxr eyləyirəm kamıma vardım, uğur olsun!

Bu ali məram, haqq işi uğrunda savaşda,
Qoy eyləsin Allah bizə yardım, uğur olsun!

Qov tülküləri, rədd elə aslan yuvasından,
Dönsün fərəhə, şənliyə dərdim, uğur olsun!

Yaz tarixə yenməzliyini, qoy hamı görsün,
Durma, daha cəng təbilini vurdum, uğur olsun!

Yurdun əbədi əsgəriyəm mən də, Müzəffər,
Ordum ilə bir cərgədə durdum, uğur olsun!



ZABİL PƏRVİZ

## BALIQ OVU

*(Balalar üçün)*

Dünən getdik atamla
Kürə balıq tutmağa,-
Bir də gördük mən boyda
Çəki düşdü qırmağa.

Çəkib çıxartdıq sudan
Bir gümüş xəncər kimi,-
Axçaları gün altda
Parıldadı zər kimi.

Baxgım, gözüm qamaşdı
Üstündəki pullara,-
Dedim: "Birdən bilmərik,
Qızıl balıq olar ha?!"

Atam dedi: "Onunçün
Gərək ipək tor ola,-
Qızılbalıq aldanıb
Qırmağa düşməz, bala!"

## ŞUŞAYA TƏYİNAT

Nolaydı, bir ömür gec doğulaydım,
Yanaydım yaşaya-yaşaya, Allah!..
Təzə bitirəydim ali məktəbi,
Təyinat alaydım Şuşaya, Allah!..

Odunla qızınan bir dağ məktəbi,
Qəlbimin odunu verərdim ona.
Gedib dərs deyərdim yalın at minən
Bir dəstə dəlisov türk yavrusuna.

Doğrayıb tökərdim kədəri, qəmi,
Qənim kəsilərdim amana, aha.
Şeir toplayardım Cıdır düzündən,
Təqdim eləyərdim Molla Pənaha.

Minnətçi düşməzdim Qara keşişə,
Əsilsiz Əsliyə uymazdım heç vaxt.
Bir dəfə çöllərdə Məcnun olmuşam,
Bu dəfə dağlarda olardım Fərhad.

Adlayıb quş kimi Qırxpilləkəndən,
Daşlarından öpən nəsim olardım.
Sellərə birinci qucaq açmağa
Sonuncu pilləkən özüm olardım.

Xan qızı bulağı açıb deyərdi
Hansı xandan gəlir onun xan soyu.
Hansı xəzinədən süzülüb gəlir
Büllur bulaqların brilyant suyu.

Düşmənin bağrını qana döndərən
Bağrıqan dağından atla keçərdim.
Qırxqız yaylağında düşüb tilsimə
Qırx qızdan birini sevib seçərdim.

Ən uca zirvəyə qonardı könlüm,
Gedib qartallara qardaş olardım.
İsa bulağından bircə piyalə
Doldurub, içməmiş sərxoş olardım.

Qızıl qönçələrin dan söküləndə
Qızıl kipriyində yaşa dönərdim.
Daşaltı çayına daş atmaq nədir,
Durub sahilində daşa dönərdim.

Sitayiş edərdim xarı bülbülə,
Tarixə düşərdi bu təzə ayin.
Tolstoysayağı dəli olardım,
Durub yaradardım tərtəzə bir din.
Xarıbülbülpərəst!..
Müqəddəs şəhər!..

Mənim azad Şuşam!..
Daha nə dərdim,
Başımda Cabbarın "Mənsuriyyə"si
Qalxıb alov-alov ləpələnərdim.
Nolaydı, bir ömür gec doğulaydım,
Yanaydım yaşaya-yaşaya, Allah!..
Təzə bitirəydim ali məktəbi,
Təyinat alaydım Şuşaya, Allah!..

## ƏS, BAHAR KÜLƏYİ!..

Əs, bahar küləyi!..
Qov buludları,
Açılsın göy üzü könlümüz kimi,-
Gətir dalğa-dalğa gələn baharı
Şair dodağından qopan söz kimi...
Əs, bahar küləyi!..
Əs səhər-səhər,
Üzündə səadət, yanağında tər,
Uçunan, titrəyən qızıl lalələr
Odlasın çəməni yanar köz kimi...
Əs, bahar küləyi!..
Oxşa çölləri,
Daraqla, varaqla qızılgülləri,-
Oyat könlümüzdə susan selləri
Bir dəli,
hikkəli,
gözəl qız kimi!..






ZAUR ƏRMUĞAN

## Sevgidən ötrü

Həsrətə sevginin işığı düşdü,
Ümidin ovcunda gəldin könlümə.
Yollar ayrıcında sükut görüşdü,
Bir anın özü də ömürmüş demə.

Tutub əlimizdən apardı bizi,
Bu tale karvanı azmaya barı.
Öpdük döngə-döngə məhəlləmizi,
Qaçdıq küçəmizdən dünyaya sarı.

Kəsdik nəfəsini bəd şübhələrin,
Çıxdıq dar içindən genişə yol-yol.
Uymadıq felinə çox "bəlkə"lərin,
Keçdik ay altından günəşə yol-yol
Əbədi qalacaq sevgidən ötrü.

## Mənim Neftçalam

Burda doğulmuşam, böyümüşəm mən,
Doğma torpağımsan mənim, Neftçalam.
Varlısan, qucağın nemətlə dolu,
Ən barlı bağımsan mənim, Neftçalam.

Sən bir parçasısan qədim yurdumun,
Suyun da, havan da can məlhəmidir.
Qoynunda buruqlar, neft mədənləri,
Ağappaq tarlalar, sarı zəmidir.

O Kür də, Xəzər də hüsnün, vüqarın,
Yayılıb hər yerə sənin şöhrətin.
Tanrıdan bəxşişdir, bir paydır bunlar,
İnan ki, kəndbəkənd gəzir söhbətin.

Bu da bir arzudur, Zaur söyləyir;
Ay mənim Neftçalam, yaşa, var ol sən!
Zəhmət çiçəyinin ətrini alıb
Olsun hər qarışın əbədi gülşən.

**1 avqust 2007**

## Sənə sarı

Elə duyuram səni,
günəşi
kor öz içinin nurunda görən kimi,
işığı sevən kimi.
Xoşbəxtliyin yaşanırkən
görünməz olduğu qədər,
bilinməz olduğu qədər
bir həsrətsən.
Sevgin
yalnız ruhumun yetişəcəyi əlçatmazlıq.
Hələ də axtarıram səni
qəlbin qəlbimdə var ikən
əllərini əlimdə tapmağa.
Sənə yol gəlirəm
daha bu sənsizlikdən qopmağa.
Qarşıla məni.

---



ƏNVƏR QƏNBƏROĞLU

## BİR QARAÇI TALEYİMİ YAXŞILIĞA YOZAYDI...

Xalqımızın taleyindən əsən dəli küləklər,
Açıldıqca bəlli olur...qarət edir yuxumu...
Zülmət gecə, dərdli səhər, mənfur qara ürəklər,
Gecə- gündüz düşündürür, sızıldadır ruhumu...

Bu da otuz yeddinci il, əsrin bəlalı dövrü,
Repressiya- təfəkkürün, düşüncənin qənimi
Məhv eləyir insanlığı zamanın hökmü, cövrü,
Ölüm başımız üstündə dolaşır kabus kimi
Soyuq payız...çovğunlu qış...fəlakətlər qapımda,
Bu dəhşətli faciədən üzülür məmləkətim
Yusif Vəzir, Əhməd Cavad, Cavid çıxmır yadımdan...

Görək sonda nə olacaq aqibəti millətin...
Azərbaycan qovuşaydı nura... əbədiyyətə...
Üzeyir bəy muğam üstə bir polonez yazaydı
Aydınlarım üz tutaydı Vətən adlı cənnətə,
Bir qaraçı taleyimi yaxşılığa yozaydı...

## ...FƏRQƏ BAXIN!

(1- ci şeir)
Dəqiq elmdir riyaziyyat
2+2= 4 kimi
Danışır rəqəmlərin dilində
Fikrində möhkəm,
hökmündə qəti...
Amma başqadır ədəbiyyat
Ölməz söz sənəti...
Fikrin qüdrəti...
Sözün incəsənəti...
Həqiqilik fitrəti...
Məcazilik aqibəti...
Nitq mədəniyyəti...
Natiqlik məharəti...
Amma təkzib olunmaz
fərqə baxın Siz!
Onda lap aşkar görəcəksiz
bu doğru zərurəti...
Dahi Dostoyevski demişkən:
Əgər həqiqətin özünə də
bir az bədii yalan
uydurub əlavə etməsən
onda sənə kömək olmaz
nə özün,
nə də göylərin mərhəməti,
inandıra, sevdirə bilməzsən
H Ə Q İ Q Ə T İ...

## Kaş taleyim çata...

Ayın şəfəqləri düşür sulara
Dəniz də oyaqdı, mən də oyağam
Kaş taleyim çata bu arzulara
Bir ağ yağış olam, dənizə yağam ...

Təbiətin üzük qaşıdı dəniz
Dəniz mas mavidi, sən ağbənizim
Əbədi sevginin yaşıdı dəniz
Sən də mavi gözlüm, eşqim, dənizim...
Sevək, şahid bilək sirli göyləri
Dəniz göz yaşı tək qoy şəffaf olsun
Qoy bizi qisqansın su pəriləri
Eşqimiz müqəddəs, ömür saf olsun...



# MARAQLI BİLGİLƏR

*("Gündoğar" qəzeti MİLLİ. AZ saytına istinad edərək sağlamlıq haqqında)*

1. Qan təchizatı olmayan yeganə bədən hissəsi - gözün buynuz təbəqəsidir. Bu orqan oksigeni havadan alır.
2. Uşaq 7 aylığına qədər eyni anda həm udquna, həm də nəfəs ala bilir.
3. Kəllə sümüyü 29 müxtəlif sümükdən ibarətdir.
4. Asqırma zamanı insanın bütün funksiyaları dayanır, hətta ürək də.
5. Beyindən gedən sinir impulsu 274 s/km sürəti ilə hərəkət edir.
6. Bir insan beyni gün ərzində dünyanın bütün telefonlarından daha çox elektik impulsu generasiya edir.
7. İnsanın ürəyi 48 milyon qallon(İngiltərə və ABŞ -da 4,5 litrə bərabər olan ölçü vahidi) qan çəkib vura bilir.
8. Bu cümləni oxuduğunuz vaxtda orqanizminizdə 50000 hüceyrə ölür və yenisi ilə əvəz olunur.
9. Qadınların ürəyi kişilərdən daha tez döyünür.
10. İnsan 90% yuxularını unudur.
11. İnsan bədənində olan qan damarlarının ümumi uzunluğu 100000 km-dir.
12. Həyatının sonuna qədər, insan təxmini olaraq 150 trillion bit informasiya yadında saxlayır.
13. Üzünüz qızardıqda, mədə də qızarır.
14. İnsanın bədənində 700 ferment (orqanizmdə baş verən proseslər üçün katalizator rolunu oynayan, canlı hüceyrədə yaranan çətin orqanik maddələrdir)işləyir.
15. İnsanlar, beli üstündə yatan yeganə məxluqlardır.
16. Uşaq 4 yaşında gündə orta hesabla 450 sual verir.
17. Bakteriyaların yalnız 1%-i insanda nasazlıq hissi yaradır.
18. Göbəyin elmi adı - umbilikusdur.
19. Diş - insan orqanizminin özü bərpa olunmayan yeganə hissəsidir.
20. İnsanın yuxuya getməsi üçün tələb olunan təxmini vaxt 7 dəqiqədir.
21. Dünyada cəmi 7% solaxay var.
22. Alma və bananın qoxusu arıqlamağa kömək edir.
23. İnsan orqanizmində yaşayan bakteriyaların ümumi çəkisi 2 kq- dır.
24. Orqanizmdə olan kalsinin 99%- i dişlərdədir.
25. Dodaqların hissiyatı barmaq uclarının hissiyatından qat-qat güclüdür.
26. Diş emalı - insan orqanizmi tərəfindən istehsal olunan ən möhkəm(bərk) toxumadır.
27. İnsan orqanizmində olan bütün dəmiri yığsaq, yalnız saat üçün vint hazırlamaq olar.
28. İnsan - bütün canlı aləmində düz xətt çəkə bilən yeganə məxluqdur.
29. Bütün həyat boyunca insan dərisi təxminən 1000 dəfə təzələnir.
30. Əl dırnaqları ayaq dırnaqlarında 4 dəfə tez uzanır.
31. Mavi gözlü insanlar ağrıya digərlərindən daha həssasdırlar.
32. İnsanın baş beynində 1 saniyə ərzində 100000 kimyəvi reaksiya baş verir.
33. İnsan orqanizmində leykositlər 2-5 gün, eritrositlər isə 3-4 ay yaşayırlar.
34. İnsan bədənində olan ən güclü əzələ - dildir.
35. Ürəyin ölçüsü hər insanın yumruğu qədər, yaşlı insanın ürəyinin çəkisi isə 220-260 qr-dır.
36. İnsanın ağzında 40000 bakteriya var.
37. İnsan gözü - 10000000 rəng çaları seçə bilir.
38. Uşaqlar ən tez yazda böyüyürlər.
39. Bir çox insanlar 60 yaşında dad reseptorlarını yarısını itirilər.
40. Səhərlər insan axşam olduğundan təxminən 8 mm daha hündür olur.
41. Sümük poladdan 5 dəfə daha möhkəmdir.
42. Açıq gözlə asqırmaq mümükün deyil.
43. Gözlərimiz doğulduğumuz andan eyni ölçüdə qalır, yalnız burun və qulaqlarımız daim böyüyür.
44. Əgər siz, təmamilə bağlı otaqdasınızsa, o zaman siz, hava çatışmazlığından deyil, karbon dioksidindən zəhərlənərək öləcəksiniz.

HƏYATINIZI SAĞLAM YAŞAMAQ DİLƏYİLƏ...

# Sağlam gələcək naminə...





Neftçala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Rayon İcra Hakimiyyəti başçısı yanında fəaliyyət göstərən Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı mübarizə üzrə Komissiyanın 2023-cü il üçün tərtib edilən İş Planına uyğun olaraq Rayon İcra Hakimiyyəti başçısının Neftçala şəhər İnzibati ərazi dairəsi üzrə nümayəndəliyində, həmçinin gənclərin asudə vaxtlarını keçirdikləri yerlərdə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində "Sağlam gələcək naminə narkotikə yox deyək" adlı növbəti maarifləndirici aksiya keçirilib. Aksiyada Neftçala Rayon İcra Hakimiyyətinin, Komissiyaya daxil olan idarə, müəssisə və təşkilatların nümayəndələri və gənclər iştirak edib.

Aksiya çərçivəsində Neftçala şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəlikdə keçirilən görüşdə narkomalıqla mübarizə sahəsində Dövlət siyasətindən, həyata keçirilən tədbirlərdən ətraflı bəhs edilib. İştirakçılar bəşəriyyətin bəlasına çevrilən "ağ ölüm"lə mübarizədə cəmiyyətin hər bir fərdinin mübarizə aparmalı olduğunu xüsusi vurğulayıblar.

Cəmiyyətin gələcəyi hesab edilən gənclərin yeniyetmələrin sağlam həyat tərzi sürmələri üçün idmana, bədən tərbiyəsinə xüsusi diqqət verməli olduqları üçün bu sahədə maarifləndirmənin önəmi diqqətə çatdırılıb. Bu gün uşaq və gənclərin asudə vaxtlarını səmərəli keçirmələri üçün lazımı şəraitin mövcud olduğu Neftçala rayonunda narkomanlıq, zərərli vərdişlərə qarşı aparılan işlər, həyata keçirilən tədbirlər öz nəticəsini verməkdədir. Yeniyetmə və gənclərimizin müxtəlif sahələr üzrə keçirilən olimpiadalarda, idman yarışlarında əldə etdikləri nəticələr, qazandıqları uğurlarının göstəricisidir. Aksiya çərçivəsində yeniyetmə və gənclərə təqdim edilən maarifləndirici buklet və broşürlər böyük maraqla qarşılanıb, göstərilən xüsusi diqqət və qayğıya görə öz təşəkkürlərini bildiriblər.

## YENİ DƏRS İLİNİZ UĞURLU OLSUN!

Yeni dərs ilinin başlanması münasibətilə 2023-2024-cü tədris ilində bütün təhsil işçilərini, şagirdləri, tələbə adını qazanan bütün gənclərimizi ürəkdən təbrik edirik. Dövlətimizin, cəmiyyətimizin gələcək inkişafı naminə hər birinizə elmlərə dərindən sahib olmağı, vətənimiz üçün xeyirli vətəndaş olmağı diləyirik. Uğur olsun.




# YAXŞI Kİ, VARSINIZ!

## MİNNƏTDARLIQ



Sağlamlığımızın keşikçiləri olan, özləri daim narahat, xəstələri üçün hər işin rahat olmasını arzu edən həkimlərimizə, tibb işçilərimizə, o cümlədən Neftçala rayon Mərkəzi xəstəxanasının əməkdaşlarına, baş həkim Elman Quliyev başda olmaqla İbrahim həkimə, Oktay həkimə, Bayram həkimə, Cəfər həkimə, tibb bacılarına, Zəminə xanıma, Fərqanə xanıma, Zümrüd xanıma, Səma xanıma, adlarını qeyd edə bilmədiyim bütün əməkdaşlara dərin minnətdarlığımı bildirirəm. ÇOX TƏŞƏKKÜR EDİRƏM.

Allah sizləri qorusun, şəfalı əlləriniz var olsun!

*B. NİFTALIYEVA*

Baş redaktor

B.H. NİFTALİYEVA

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır.

Ünvanımız: Neftçala şəhəri, H. Əliyev prospekti 38.
Telefon: (21) 26-3-44-03
e-mail: gundogarqazeti@gmail.com
AZ95AIIB33080019446400258164
VÖEN: 6500044671

Qəzet "Gündoğar"ın kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərmedia" mətbəəsində çap olunmuşdur.

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun olmaya bilər.
Tiraj: 250
Qiyməti 50 qəpik.